# Səyyar qəbullar





Yenikənd kəndi.



Topbağ kəndi.



Böyük Əmili kəndi.



Mirzəbəyli kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin aprel ayında səyyar qəbullar Yenikənd, Topbağ, Böyük Əmili və Mirzəbəyli kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**Fotolar S. Umuyevindir.**
**“Qəbələ”.**

***QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2025-ci İLİN MAY AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ***

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Aydınqışlaq kəndi | 01.05.2025 | Kənd məktəbi, saat $15^{00}$ |
| Böyük Pirəli kəndi | 08.05.2025 | Kənd İƏN-in binası, saat $11^{00}$ |
| Hacıalılı kəndi | 15.05.2025 | Kənd məktəbi, saat $15^{00}$ |

# Şura iclası





Rayon icra hakimiyyətində növbəti şura iclası keçirilmişdir. Şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrlərinin də iştirak etdiyi tədbirdə rayonun yaşayış məntəqələrində keçirilən səyyar qəbullarda qaldırılan məsələlərin kənd inzibati ərazi nümayəndəliklərində icra vəziyyəti ilə əlaqədar 2024-cü il ərzində görülmüş işlər barədə danışılmış, mövcud problemlər və qarşıda duran məsələlər müzakirə edilmiş, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

# Vətəndaş qəbulları





11, 18 və 25 aprel 2025-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qaziləri, eləcə də digər vətəndaşların müraciətləri, irəli sürdükləri təkliflər dinlənilmiş, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**Fotolar S. Umuyevindir.**

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar "Açıq qapı" günü elan edilib və "Tariximizin bələdçisi abidələrimiz" adlı tədbir keçirilib.

# "Açıq qapı" günü

Bununla əlaqədar Qəbələ Gənclər və Karyera Mərkəzinin gəncləri, Qəbələ Dövlət Peşə Təhsili Mərkəzinin tələbələri , Heydər Əliyev Mərkəzinin əməkdaşlarına ekskursiya təşkil olunub,muzeyin fondunda mühafizə olunan elmi-arxeoloji qazıntılar nəticəsində əldə edilən eksponatlar və muzeyin açıq səma altında sərgilənən daş abidələrdən ibarət tarixi - memarlıq nümunələri haqqında geniş məlumatlar verilib.

Tədbir iştirakçılarına rayonun tarixi-memarlıq abidələri və muzeyin ekspozisiyasını əks etdirən bukletlər təqdim olunub.

Tədbir dəyirmi masa ətrafında davam edib. Çıxış edənlər bildiriblər ki, Azərbaycan dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biri olaraq yaşı minillikləri əhatə edən tarixi-memarlıq abidələri ilə zəngindir və dövlətimizin qayğı-diqqəti sayəsində qədim tarixə malik abidələrin tədqiqi, mühafizəsi, bərpası və mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür.

Tədbir çərçivəsində mövzu ilə bağlı video material nümayiş olunub.

**İlhamə SEYİDOVA,**
**“Qəbələ”nin ştatdankənar müxbiri.**



# Pasxa - Dirilmə bayramı

Aprelin 20 də bütün xristian dünyasında İsa Məsihin ölümdən dirilməsi münasibətilə qeyd olunan Pasxa bayramı (və ya Dirilmə bayramı) qeyd edilmişdir. Bu bayram xristian xalqlarının ən vacib dini bayramlarından biridir. Xristianlar İsa Məsihin xəyanət nəticəsində çarmıxa çəkildikdən sonra onun ölümünün üçüncü günü dirildiyinə inanırlar. Bu hadisə xristian inancının əsasını təşkil edir. Pasxa bayramını Qərb (katolik və protestant) kilsələri Qriqorian təqviminə görə, Şərq (pravoslav) kilsələri isə Yuli təqviminə görə qeyd edirlər. Azərbaycanda Pasxa əsasən pravoslav xristian icmaları (əsasən rus və gürcü mənşəli əhali) tərəfindən qeyd olunur.

Bayram zamanı insanlar kilsəyə gedir, dua edir, yumurtaları boyayır və Pasxa çörəyi (kulich) hazırlayırlar. Yumurta yeni həyatın və dirilmənin simvoludur. Pasxa zamanı yumurta boyamaq İsa Məsihin məzardan dirilməsi ilə bağlı ümid və yenilənməni təmsil edir. Yumurtalar adətən qırmızı rəngə boyanır (qan və dirilməni simvolizə edir). Uşaqlar və böyüklər yumurtaları bir-birinə vuraraq "duel" edirlər və qalib olurlar.

(Ardı 4-cü səhifədə).